## *Səfər düşüncələri*

# “Qəlbim Egeydə qaldı...”

**(əvvəli “Xalq qəzeti”nin 30 oktyabr nömrəsində)**

**İzmirin özəlliyi barədə ilk obrazlı təəssüratı görkəmli türk şairi Cahit Külevinin bu misralarından almışdım: “İzmirin denizi kız, kızı deniz, sokakları hem kız, hem deniz kokar”...**

Sərnişin təyyarəsi ucu-bucağı görünməyən meqapolis üzərində dövrə vuraraq, şəhərin beynəlxalq hava limanına doğru səmt götürdü. Bu vaxt salonda təyyarə bələdçisini şəhər barədə qısa məlumatı səsləndi:

–İzmir Türkiyənin üçüncü ən böyük şəhəridir. Əhalisinin sayı isə təqribən 4,4 milyon nəfərdir... Anadolu yarımadasının qərbində, Egey dənizi bölgəsinin mərkəzində və İzmir körfəzi boyunca yerləşən şəhər həm də Türkiyənin ən böyük limanlarından biridir. Şəhərin qərb tərəfində Egey adaları, cənubunda Aydın, şimalında Balıkesir və Manisa yerləşir.

Gözlərimi illüminatordan çəkə bilmirəm. Aşağıda əsrarəngiz bir panoram açılmışdı–bir tərəfdə büllur kimi ləpələri bərq vuran Egey dənizi, digər tərəfdən sahil boyu uzanıb gedən gözəllər gözəli İzmir. Diqqətimi ən çox çəkən ətraf təpələrdən, dağlardan Egey dənizinin şəffaf sularına qədər uzanmış ucsuz-bucaqsız meşələr, parklar, səliqə ilə əkilmiş zeytun, xurma bağları, palma və cürbəcür dekorativ ağaclardır. İzmir körfəzini seyr etmək də özgə bir aləmdir. Açıq dənizə çıxan və geri qayıdan böyük və kiçik gəmilər, tankerlər, sahilə yan almış yaxtalar, katerlər, yelkənli qayıq və baydarkaların sayı-hesabı yoxdur.

Yanımda əyləşmiş, əslən izmirli olan yol yoldaşım Levent bəy uzaqda görünən dənizə çıxıntını göstərərək: Qaraburun yarımadasıdır,– deyir.

– Dənizi, çimərlikləri termal mərkəzləri və suları ilə məşhurdur. O tərəfdə isə antik dövrün Roma imperiyası dönəminin ən böyük şəhərlərindən olan, İoniya mədəniyyətinin zənginliklərini indiyədək özündə yaşadan Efes yerləşir. Cənub tərəfdə də gəzməli, görüməli yerlər çoxdur. Vaxtınız olsa, Çeşməyə getməyinizi, Alaçatını görməyinizi məsləhət bilərdim...

İzmir Atatürkün ən çox ziyarət etdiyi şəhərlərdən biridir. Bu qarşılıqlı sevgi bir əsrdən çoxdur ki, izmirlilərin qəlbində ən əziz xatirə kimi yuva qurub. Bu şəhər Milli İstiqlal Savaşının başlanmasında, işğal prosesi və qurtuluşda böyük əhəmiyyət kəsb etməklə yanaşı, Atatürkün həyat yoldaşı Lətifə xanımın da məmləkətidir. Bu səbəbdən İzmir onun duyğusal həyatında xüsusi bir yerə sahibdir. Özünün dediyinə görə, Mustafa Kamal paşa ilk dəfə 1905-ci ildə İzmirə səfər edib. O, ilk səfəri ilə bağlı belə demişdi: “İzmiri ilk gördüyüm gün qovulub sürgünə getdiyim gündür. Sürgünə gedəndə bu füsunkar şəhərdə bir neçə saat keçirdim. Məhz o zaman mən bizim ölümcül düşmənlərimiz olan əcnəbilərə dolu bu gözəl sahili gördüm. Mən belə qərara gəldim: İzmir əsl soylu türk xalqından qoparılıb; Amma, təəssüf ki, o zaman bu həqiqəti izah edə bilməzdim”.

İzmirin tarixində adı keçən, böyük xidmətlər göstərmiş şəxsiyyətlər çox olub: Onlardan bəzilərinin adlarını yazının əvvəlində çəkmiş və xidmətlərindən ötəri söz açmışam. Şübhəsiz, bu şəxsiyyətlərin hər birinin xatirəsi bu və ya digər dərəcədə izmirlilər üçün əzizdir. Amma, heç biri böyük öndər Mustafa Kamal paşa Atatürklə müqayisə oluna bilməz. Mustafa Kamal paşa izmirlilərin qəlbində hələ sağlığında özünə əbədi taxt qurmuşdur. Şəhərdə hara gedirsənsə, sanki ulu öndərin nəzərləri səni müşayiət eləyir. Muzeylərlə, heykəllərlə, xiyabanlarla, küçələrlə, portretləri ilə...

Türkiyədə ən böyük abidə məhz İzmirdə M.K.Atatürkə qoyulmuşdur. Qaya üzərində ucaldılmış bu nəhəng abidə üç ilə (2006-2009-cu illər) ərsəyə gəlmiş və bu işə 4,2 milyon türk lirəsindən çox vəsait xərclənmişdir. Böyüklüyünə görə, Türkiyədə birinci, dünyada isə onuncu olan 42 metrlik abidənin üzərində Mustafa Kamal paşanın məşhur “Yurdda barış, dünyada barış” kəlamı həkk olunmuşdur.

Şəhər azad edildikdən sonra 1922-ci il sentyabrın 10-da İzmirə gələn Mustafa Kamal paşa əvvəlcə Karşıyakadakı İplikçizadə köşkündə qalıb; Sonra Göztəpədə Uşakizadələrin malikanəsində uzun müddət yaşayıb. Daha sonra həyat yoldaşı Lətifə xanımla ilk dəfə burada tanış olub.

İki həftə sonra, 24 sentyabr 1922-ci ildə İzmir vətəndaşlığı verilən Mustafa Kamal paşa keçirdiyi hissləri belə ifadə etmişdi: “İzmirin hörmətli və xeyirxah xalqına! Öyrəndim ki, İzmir Bələdiyyəsi və İnzibati Şuralar vasitəsilə mənə İzmir vətəndaşlığı titulu vermisiniz. Vətənimizin nuru olan bu şəhərin fərdi, torpaqlarımızı düşmən istilasından xilas etmək üçün illərlə bütün ölkəni fədakarlıqlara sövq edən izmirli soydaşlarımız arasında sayılmaq mənim üçün sonsuz sevinc və xoşbəxtlikdir.”

Atatürkün İzmirin Karşıyaka qəsəbəsinə xüsusi bağlılığı var idi. O, bu bağlılıq barədə demişdir: “Bütün İzmiri və izmirliləri sevirəm. Əminəm ki, gözəl İzmirin saf qəlbli insanları da məni sevirlər. Sadəcə, bir təsadüf məni Karşıyaka ilə daha sıx bağlayır. Karşıyaka, anam sənin qoynunda, torpağında yatır”.

İzmir tarixi və təbii gözəllikləri ilə dünyanın diqqət çəkən turizm və istirahət mərkəzləri sırasındadır. Tarix boyu bir çox dövlətin tərkibində olan şəhər bu gün də müxtəlif mədəniyyətlərin sintezini özündə yaşadır. İzmirin unikal gözəllikləri olan 30 rayonu var. Müasir küçələri, dənizi və təmiz havası ilə seçilən bu şəhər həm də böyük bir meqapolisdir. Bura tarixi yerləri və təbii gözəllikləri ilə ziyarətçilərə unikal anlar yaşamağa imkan verir.

Çeşmə İzmirin tarixi rayonlarından biridir. Rayonun sərhədlərinin çoxu Egey dənizinin firuzəyi suları ilə yuyulur. Bu bölgənin qonşusu Urladır. Tarixi eramızdan əvvəl VII əsrə gedib çıxan bu rayon keçmişdə mühüm ticarət mərkəzlərindən biri olmuşdur. Bir çox əyalətə ev sahibliyi edən Çeşmədə Karvansaray, qala, kilsə, muzey kimi qədim tikililər var. Burada 500 yaşı olan Çeşmə qalası və Erythrai antik şəhəri və s. kimi görməli yerlər vardır.

30 kilometrədək sahil xəttinə malik olan rayonun çimərlikləri bölgənin cəlbediciliyinin əsas səbəblərindən biridir. Xüsusilə Ilıca çimərliyi ağ qumları və dayaz dənizi ilə bütün istirahət edənlərin sevimli yerinə çevrilmişdir.

İzmir deyildikdə ilk ağıla gələn yerlərdən biri də Alaçatıdır. İzmirin gəzməli yerləri arasında olan Alaçatı ağ daş divarları ilə də tanınır. Çeşməyə birləşmiş bu məkanda ilin, demək olar ki, bütün günlərində külək əsdiyinə görə ziyarətçilər üçün də cəlbedicidir.

Alsancak da maraq kəsb edən rayonlardan biridir. Festivallarla rənglənən Alsancak məhəlləsi gəzinti yeri kimi də diqqət çəkir. Balıq restoranları və barlarının yerləşdiyi Kordon sahil boyu uzanır. İstirahət edənlərin başqa bir təkrarolunmaz görüş mərkəzi Sevgi yoludur. Hər iki tərəfində xurma ağacları əkilmiş bu küçədə kitab və zərgər mağazaları yerləşir.

İzmirin ən məşhur küçələrindən biri də Kordondur. İlin bütün fəsillərində gediş-gəlişli bir mərkəz olan Kordon Alsancak rayonunda yerləşir. İzmirlilərin görüş yerinə çevrilən bu küçənin tarixi 1850-ci illərə gedib çıxır. Cümhuriyyət Meydanı ilə İzmir Limanı arasında yerləşən bu xiyaban yaşıl otların üzərində uzanaraq Egey havasından zövq almaq istəyənlərin ürəyincə olan yerdir.

İzmirin gəzməli-görməli yerlərini saymaqla qurtaran deyil. Bizim üçün ən maraqlı olan isə Petkim yarımadasında yaradılmış xariqələr, daha doğrusu, Türkiyə ilə Azərbaycan qardaşlığının rəmzinə çevrilmiş nəhəng sənaye kompleksidir. Hətta, ən güclü, inkişaf etmiş dövlətlərin də həsəd apardığı neft-sənaye kompleksini “iki dövlət, bir millət” olan Anadolu və Azərbaycan türkləri yaratmışlar. “SOCAR–Türkiyə” şirkətinin nəzarətində olan bu müəssisələr dayanmaq bilmədən gecə-gündüz işləyir, istehsal etdikləri məhsulları Petkim limanından gəmilərlə dünyanın müxtəlif ünvanlarına yola salırlar. İki qardaş ölkənin–Türkiyə və Azərbaycan iqtisadiyyatının nəbzi burada döyünür. Petkim yarımadasındakı nəhəng neft-kimya sənayesi kompleksi artıq dünya iqtisadiyyatının nəbzinin necə vurmasına da təsir göstərməkdədir.

Hazırda “SOCAR–Turkiyə” neft emalı, neft-kimya, energetika, logistika və daşıma inteqrasiyasına əsaslanan sahələrdə bir-birini dəstəkləyən bir enerji şirkətidir. Müştərək şirkətin 87 faizlik hissəsi SOCAR-a məxsusdur. “SOCAR–Turkiyə” 2023-ci ildə Türkiyənin ən böyük sənaye şirkəti olmağı qarşıya məqsəd qoyub. SOCAR-ın qardaş ölkədəki investisiya portfelinin həcmi 20 milyard dollardan çoxdur.

Lakin istər Türkiyəni, istər Azərbaycanı, istərsə də bu iki türk dövlətinin qardaşlığını və birgə əməkdaşlığını gözü götürməyən, nəinki qısqanclıq, hətta açıq-aşkar düşmənçilik edən qüvvələr də vardır. Onlar bu cür nəhəng layihələrin reallaşmasına hər vəchlə mane olmaq, aranı qarışdıraraq, diqqəti vacib məsələlərdən yayındırmaq, inkişafın qarşısını almaq üçün dəridən-qabıqdan çıxırlar. Bu gün Türkiyənin ətrafında baş verən xoşagəlməz olaylar, terror təşkilatlarının ölkənin müxtəlif bölgələrində törətdiyi təxribatlar, o cümlədən Azərbaycandan gedən neft-qaz kəmərlərinin partladılmasına göstərilən cəhdlər, rəsmi Ankaraya qarşı hədə-qorxu və təhdidlər... heç də təsadüfi deyil. Elə Azərbaycana qarşı da son vaxtlar müxtəlif dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən göstərilən təzyiqlər, sərgilənən ikili standartlar, cəbhə xəttində Ermənistan qoşun birləşmələrinin təxribatlarının artması, ölkə daxilində düşmən dəyirmanına su tökən “5-ci kolon” təmsilçilərinin fəallaşması və digər faktlar da belə düşünməyə əsas verir ki, bunlar hamısı böyük Türk xalqına qənim kəsilən dünyanın müxtəlif beyin və güc mərkəzləri tərəfindən idarə olunur və istiqamətləndirilir...

Çeşmədə qaldığım otelin 100-120 addımlığındakı oturacaqlardan birində əyləşib Egenin bir-birini qovan ləpələrinə və bir də sahil boyu göz işlədikcə uzanan qar kimi ağappaq qumlarına tamaşa edirdim. Bu vaxt yanımda əyləşmiş, sinni, təxminən, 80-ni adlamış ağsaqqal 10-15 metr aralıda qumdan təpəciklər düzəldən 5-6 yaşlı nəvəsinə səsləndi:

–Oğuz, uzağa getmə, elə oradaca qumdan fiqurlar düzəlt, gəlib baxacam...

Sonra isə üzünü mənə tutaraq: Nəvəmdir, qorxuram, gözdən yayınar, dənizə girər,– dedi.

Söhbətimiz alındı. Məlum oldu ki, Orxan bəy tarix müəllimidir. Hazırda pensiyadadır. Ondan soruşdum ki, bu ağ rəngli qumu ilk dəfədir görürəm. Burada qumlar beləmi olur? Yox,–dedi. – Gəmi ilə Liviyadan daşıyıb gətiriblər, turistləri cəlb etmək üçün.

Orxan bəy Azərbaycandan olduğumu öyrəndikdən sonra bir qədər də ətraflı məlumat verdi:

–Turistlərə görə, lazım olan hər şeyi edirlər. İndi xeyli seyrəkləşib, amma, əvvəllər burada əcnəbi turistlər əlindən bu vaxtlar iynə atsaydın, yerə düşməzdi. Sahil boyu düzülmüş bu restoranlarda, kababxanalarda boş yer tapmaq müşkül idi. Elə dadlı təamlar bişirirlər ki, özümüzünkülərdən əlavə, şənbə və bazar günləri rumlular gəmilərdə balıq və digər dəniz məhsullarını yemək üçün bura axışırdı. İndi Yunanıstanla aramız sərinləşdiyinə görə gediş-gəliş yoxdur. Türkiyənin qulağının dibindəki adalara yiyələnmək istəyirlər. Amma, Türkiyədən nəyisə qoparmaq istəyənlər–istər qonşu dövlətlər olsun, istərsə də separatçı təşkilatlar, yaxud onları bu yola təhrik edənlər başa düşməlidirlər ki, türkdən bir qarış da torpaq almaq mümkün deyil. Türk ölər – torpağını verməz. Heç olmasa, onlar tarixdən ibrət götürsünlər. Gözlərinin qarşısına Türkiyənin üzərinə bütün Avropanın hücumunu təşkil edən səlib (xaç) yürüşlərini gətirsinlər. Roma papasının fətvası ilə 500 minlik nəhəng ordu bu torpaqlarda darmadağın edildi.

Yaxud, türkün böyük Zəfər savaşı olan Çanaqqala döyüşlərini yada salsınlar. Dünyanın ən böyük dövlətlərinin birləşmiş ordusuna qarşı ulu öndər Mustafa Kamal paşanın komandanlığı altında qəhrəmancasına döyüşən və qalib gələn Türkiyə həmin savaşda 250 min şəhid verdi. Amma bircə qarış da torpaq vermədi. Düşmən tərəfin həmin döyüşdə itkisi daha çox olmuşdu. Yeri gəlmişkən, Çanaqqala savaşında Azərbaycan türkləri də Osmanlı qardaşları ilə çiyin-çiyinə vuruşmuşdular. Bunları deməkdə məqsədim odur ki, bu torpağa türk şəhidlərinin qanı hopmuşdur. Bizim üçün bu torpaq çox əzizdir. Odur ki, xam xəyallara düşməsinlər.

Sıravi bir türkün bu fikirləri Türkiyə və Azərbaycan liderlərinin dedikləri ilə necə də üst-üstə düşürdü. **Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan:**

– Buradan bunu açıq şəkildə söyləmək istəyirəm: Azərbaycan və Türkiyə, regionda sülhdən, əmin-amanlıqdan, sabitlikdən və rifahdan başqa heç bir şey istəmirlər. Biz bölgədə düşmənçiliyin deyil, həmrəyliyin hakim olmasını istəyir və bunun üçün mübarizə aparırıq. Şimali Kipr, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsində, Qafqazda əmin-amanlığın bərqərar olmasında, terrorizmlə mübarizə məsələsində Azərbaycan ilə eyni tərəfə baxırıq, ortaq məqsəd və idealları paylaşırıq. Dağlıq Qarabağın işğalı azərbaycanlı qardaşlarımın ürəyini nə qədər ağrıdırsa, bilməlisiniz ki, Türkiyə Respublikasının hər bir vətəndaşının da ürəyini bir o qədər ağrıdır. Terror hücumları ilə şəhid olan hər bir gəncimizin acısı bizim ürəyimizə od saldığı kimi, inanıram ki, azərbaycanlı qardaşlarımızın ürəyinə də eyni dərəcədə od salır... Biz Azərbaycan ilə qurduğumuz bu qardaşlıq əlaqəsini əsasən regiondakı bütün ölkələrlə yaratmaq arzusundayıq.

**Azərbaycan Prezidenti İlham Əliyev:**

– Azərbaycanın ən çətin anlarında bizə ilk dəstək verən qardaş Türkiyə olmuşdur... Mən bir daha demək istəyirəm, Türkiyə bizim doğma vətənimizdir. Biz bir-birimizi bir-birimizdən ayırmırıq... Bu gün dünya xəritəsində Türkiyə kimi böyük bir güc vardır. Bu, bizi çox sevindirir. Bu, bizim də gücümüzü artırır. Mən Türkiyəni ürəkdən sevən insan kimi buna çox sevinirəm... Böyük Atatürk demişdir ki, Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir. Heydər Əliyev demişdir ki, Türkiyə–Azərbaycan bir millət, iki dövlətdir. Bu iki dahiyanə kəlam həm Türkiyə, həm Azərbaycan xalqlarına yol göstərir. Biz bu yolda daim və əbədi, bərabər irəliyə gedəcəyik.

...Türkiyəyə unudulmaz səfərimi başa vurub Vətənə qayıdarkən yenə də təyyarənin illüminatorundan ayrılmaq istəmədiyim gözəlliyi seyr edərkən istər-istəməz əllərimi Uca Yaradanın dərgahına qaldıraraq ürəyimdən keçənləri dilə gətirdim:

– Allahım, yaratdığın bu cənnətməkanı Böyük Türk xalqı üçün əbədi məmləkət olaraq qərar ver! Bütün türkləri xətadan-bəladan hifz elə, qoru! Amin!

**Qüdrət PİRİYEV,**
**“Xalq qəzeti”**

**Bakı-İzmir-Bakı**











